**İNSAN HÜQUQLARI ÜZRƏ AVROPA MƏHKƏMƏSİ**
BİRİNCİ BÖLMƏ
**ƏLİYEV VƏ DİGƏRLƏRİ AZƏRBAYCANA QARŞI**
*(Şikayət № 28736/05)*
**Q Ə R A R**
STRASBURQ
18 dekabr 2008-ci il

*Bu qərar qətidir, lakin redaktə edilməsi üçün yenidən baxıla bilər. Qərar Konvensiyanın 44-cü maddəsinin 2-ci bəndində göstərilən hallarda qəti olacaq. O, yenidən redaktə edilə bilər.*

**Əliyev və digərləri Azərbaycana qarşı iş üzrə**,
İnsan Hüquqları Üzrə Avropa Məhkəməsi (Birinci Bölmə) aşağıdakı tərkibdə,
Xristos Rozakis, *Sədr*,
Nina Vaciç,
Xanlar Hacıyev,
Din Spilman,
Sverr Erik Cebens,
Ciorcio Malinverni,
Qeorqe Nikolau, *hakimlər,*
və Soren Nilsen, *Bölmə Katibi*,
27 noyabr 2008-ci ildə qapalı şəkildə müzakirə edərək, həmin gündə bu qərarı qəbul edir:

**PROSEDUR**

1. «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Konvensiyanın («Konvensiya») 34-cü maddəsinə əsasən, Azərbaycan Respublikasının on vətəndaşı olan cənab İntiqam Əliyev, Rəşid Hacılı, Ənnağı Hacıbəyli, Şahbaz Əliyev, Fərman Hüseynov, Əlövsət Əliyev, Əyyub Kərimov, Vidadi Mirkamal, Akif Əlizadə və Namizəd Səfərov («ərizəçilər») tərəfindən Azərbaycan Respublikasına qarşı verilmiş şikayət üzrə (№ 28736/05) iş 30 iyul 2005-ci ildə başlanılmışdır. Bakıda vəkil işləmiş birinci ərizəçi cənab İ.Əliyev digər doqquz ərizəçiləri təmsil edib.

2. Azərbaycan Hökumətini isə («Hökumət») onun nümayəndəsi Ç.Əsgərov təmsil edirdi.

3. Ərizəçilər iddia etdilər ki, ictimai birliyin dövlət qeydiyyatının gecikdirilməsi onların sərbəst birləşmək hüquqlarını pozmuş, daxili araşdırma əsassız olaraq davamlı olmuş və milli məhkəmələr Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə qarşı işlərdə müstəqil və qərəzsiz olmamışlar.

4. 09 noyabr 2006-cı ildə Birinci Bölmənin sədri şikayət barədə Hökuməti məlumatlandırmaq qərarına gəlib. Həmçinin, belə qənaətə gəlinib ki, işin mahiyyəti onun məqbuliyyəti ilə eyni vaxtda araşdırılsın (Konvensiyanın 29-cu maddəsinin 3-cü bəndi).

**FAKTLAR**

**I. İŞİN HALLARI**

5. 24 may 2003-cü ildə ərizəçilər «Azərbaycan Hüquqşünaslarının Forumu» adlanan birlik təsis ediblər. Bu, cəmiyyətin daha da demokratikşləməsinə, dövlət tərəfindən idarə olunan qanunun aliliyinin formalaşmasına, hüquqşünaslar arasında əlaqələndirməyə və onların peşə maraqlarının qorunmasına yönələn müxtəlif fəaliyyəti həyata keçirmək məqsədi daşıyan qeyri-kommersiya təşkilatı olub.

6. 23 iyun 2003-cü ildə ərizəçilər hüquqi şəxslərin dövlət qeydiyyatına cavabdeh dövlət hakimiyyəti orqanı olan Ədliyyə Nazirliyinə («Nazirlik») birliyin dövlət qeydiyyatı üçün müraciət ediblər. Daxili qanunvericiliyə müvafiq olaraq, qeyri-hökumət təşkilatı hüquqi şəxs statusunu yalnız Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alındıqda əldə edir.

7. Həmin vaxtda tətbiq olunan «Hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında» 06 fevral 1996-cı il tarixli Qanuna («‹Dövlət qeydiyyatı haqqında» əvvəlki Qanun») əsasən, Nazirlik müraciəti aldıqdan sonra

on gün müddətində ərizəçilərin qeydiyyat müraciətinə cavab verməli olmuşdur. Lakin ərizəçilər bir neçə ay ərzində hər hansı cavab almayıblar.

8. 2004-cü ilin martında ərizəçilər Yasamal rayon məhkəməsində iddia qaldıraraq, Nazirlik tərəfindən təşkilatlarını qeydə almaqdan «yayınmasından» şikayət etmiş və məhkəmədən xahiş etmişlər ki, onu qeydə almağı Nazirliyə həvalə etsin. Onlar iddia ediblər ki, dövlət qeydiyyatında gecikdirmə onların Konstitusiyanın 58-ci maddəsinə və Konvensiyanın 11-ci maddəsinə əsasən birləşmək azadlığı hüququnu pozub və mənəvi zərərə görə kompensasiyanı tələb ediblər.

9. Ərizəçilərin tələbinə cavab olaraq, məhkəməyə təqdim etdiyi sənədlərdə Ədliyyə Nazirliyi iddia edib ki, 18 fevral 2004-cü ildə o, birliyin hüquqi ünvanına rəsmi cavabı göndərib. Lakin poçt xidməti onu çatdıra bilməyib, ona görə ki, zərfin üstündə göstərilmiş ünvan səhv olub. Nazirlik rəsmi cavabı düzgün ünvana yenidən 28 iyun 2004-cü ildə göndərib. Bu cavabda Nazirlik qeyd edib ki, o, «hər hansı hərəkət etmədən», yəni dövlət qeydiyyatı haqqında şəhadətnaməni və ya dövlət qeydiyyatından rəsmi imtinanı vermədən qeydiyyat sənədlərini ərizəçilərə qaytarıb. Səbəb ondan ibarət olub ki, ərizəçilər «Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında» Qanunun 3.1-ci maddəsi tələb etdiyi kimi, birliyin adında onun fəaliyyətinin izahını daxil etməyiblər və Mülki Məcəllənin 47.1-ci maddəsi tələb etdiyi kimi, birliyin nizamnaməsini imzalamaqla təsdiqləməyiblər.

10. 24 yanvar 2005-ci ildə Yasamal rayon məhkəməsi ərizəçilərin tələblərini rədd etdi. Məhkəmə müəyyən etdi ki, Nazirlik ərizəçilərin qeydiyyat müraciətinə rəsmi cavabı 18 fevral 2004-cü ildə verib, baxmayaraq ki, ərizəçilər, qəbul edənin ünvanında təsadüfi səhv ucbatından onu almayıblar. Məhkəmə daha sonra «Dövlət qeydiyyatı haqqında» əvvəlki Qanunda təsbit edildiyi kimi, on gün müddətində Nazirliyin cavab vermədiyi barədə ərizəçilərin dəlilini rədd etdi. Məhkəmə qeyd edib ki, bu ərəfədə, 09 yanvar 2004-cü ildə, «Dövlət qeydiyyatı və hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında» yeni Qanun («Dövlət qeydiyyatı haqqında» yeni Qanun) qüvvəyə minib və «Dövlət qeydiyyatı haqqında» əvvəlki Qanunu əvəzləyib. «Dövlət qeydiyyatı haqqında» yeni Qanuna əsasən, qeydiyyat müraciətinə Nazirliyin rəsmi cavabı üçün müddət müraciətin qəbul edilməsindən sonra 40 iş günü olub. Məhkəmə əsaslandırıb ki, «Dövlət qeydiyyatı haqqında» əvvəlki Qanun artıq qüvvədə olmadığına görə, onunla müəyyən olunmuş müddətlər tətbiq edilməzdir və 40 günlük yeni müddət 09 sentyabr 2004-cü ildən, yəni «Dövlət qeydiyyatı haqqında» yeni Qanunun qüvvəyə mindiyi tarixdən tətbiq ediləndir. Müvafiq olaraq, məhkəmə qərara alıb ki, Nazirlik qanunla müəyyən olunmuş müddətdə cavab verib və qeydiyyat sənədlərində aşkarlanmış çatışmazlıqlar aradan qaldırıldıqdan sonra ərizəçilər dövlət qeydiyyatı üçün yenidən müraciət edə bilərlər.

11. 19 aprel 2005-ci ildə Apellyasiya Məhkəməsi birinci instansiya məhkəməsinin qərarını qüvvədə saxladı.

12. 29 iyun 2005-ci ildə Ali Məhkəmə Apellyasiya Məhkəməsinin qərarını qüvvədə saxladı.

## II. MÜVAFİQ DAXILI QANUNVERİCİLİK

### A. Birliklərin dövlət qeydiyyatı

13. Azərbaycan Respublikasının 12 noyabr 1995-ci il tarixli Konstitusiyasının 58-ci maddəsi aşağıdakıları nəzərdə tutur:

> «I. Hər kəsin başqaları ilə birləşmək hüququ vardır.
>
> II. Hər kəs istənilən birlik, o cümlədən siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai birlik yaratmaq və ya mövcud birliyə daxil olmaq hüququna malikdir. Bütün birliklərin sərbəst fəaliyyətinə təminat verilir. ... »

14. 2000-ci il tarixli Mülki Məcəllənin 47.1-ci maddəsi aşağıdakıları nəzərdə tutur:

> «47.1. Hüquqi şəxsin təsisçiləri tərəfindən təsdiq edilmiş nizamnaməsi hüquqi şəxsin təsis sənədidir. ... »

15. 09 yanvar 2004-cü ilədək qüvvədə olmuş «Hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında» 06 fevral 1996-cı il tarixli Qanunun 9-cu maddəsi aşağıdakıları nəzərdə tutur:

«Hüquqi şəxslərin, xarici hüquqi şəxslərin filiallarının və nümayəndəliklərinin dövlət qeydiyyatı üçün müraciət edildikdə dövlət qeydiyyatı orqanı:

- sənədləri baxılmaq üçün qəbul edir;

- dövlət qeydiyyatı üçün müraciət edənə 10 gün müddətində dövlət qeydiyyatı haqqında şəhadətnamə, yaxud dövlət qeydiyyatına almaqdan imtina barədə yazılı məlumat verir;

- dövlət qeydiyyatı üçün təqdim olunmuş sənədlərdə yol verilmiş çatışmazlıqlar aradan qaldırıldıqda, həmin sənədləri baxılmaq üçün qəbul edir və dövlət qeydiyyatına almaq barədə 5 gün müddətində qərar qəbul edir.»

16. 09 yanvar 2004-cü ildən qüvvəyə minmiş «Dövlət qeydiyyatı və hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında» 12 dekabr 2003-cü il tarixli Qanunun 8.1-ci maddəsi aşağıdakıları nəzərdə tutur:

«Hüquqi şəxs statusunu əldə etmək niyyətində olan qeyri-kommersiya təşkilatının və ya xarici hüquqi şəxsin filialının, yaxud nümayəndəliyinin dövlət qeydiyyatı, bir qayda olaraq, 40 gün müddətində həyata keçirilir. ... »

17. «Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında» 13 iyun 2000-ci il tarixli Qanunun 3.1-ci maddəsi aşağıdakıları nəzərdə tutur:

«Qeyri-hökumət təşkilatı təşkilati-hüquqi formasını və fəaliyyətinin mahiyyətini göstərən ada malik olmalıdır. ... »

**B. Qanunun geriyə şamil olunmaması**

18. Azərbaycan qanunvericiliyinə əsasən ümumi prezumpsiya ondan ibarətdir ki, yeni hüquqi aktlar xüsusi istisnalardan asılı olaraq, geriyə şamil olunur və ya olunmur. Xüsusən, Konstitusiyanın 149-cu maddəsi (VII) nəzərdə tutur ki, fərdi şəxslərin və hüquqi şəxslərin vəziyyətini yalnız yaxşılaşdıran və ya hüquq məsuliyyətini aradan qaldıran, yaxud azaldan hüquqi aktlar geriyə şamil oluna bilər; başqa hüquqi aktlar geriyə şamil edilmir.

19. «Normativ hüquqi aktlar haqqında» 26 noyabr 1999-cu il tarixli Qanunun 42-ci maddəsi nəzərdə tutur ki, hüquqi aktların geriyə şamil olunması Konstitusiyanın 149-cu maddəsi (VII) ilə tənzimlənir. Mülki Məcəllənin 7.1-ci maddəsi nəzərdə tutur ki, Konstitusiyanın 149-cu maddəsində (VII) nəzərdə tutulmuş hallar istisna olmaqla, mülki qanunvericiliyin müddəaları geriyə şamil olunmur və qüvvəyə mindikdən sonra baş vermiş hadisələrə tətbiq edilir.

## HÜQUQİ MƏSƏLƏLƏR

### I. KONVENSİYANIN 11-ci MADDƏSİNİN İDDİA OLUNAN POZUNTUSU

20. Ərizəçilər şikayət etdilər ki, Ədliyyə Nazirliyi tərəfindən onların birliyinin vaxtında qeydiyyata alınmaması birləşmək azadlığı hüquqlarını pozub. Qeydiyyat müraciətinin araşdırılmasında əhəmiyyətli gecikdirməyə yol verməklə və rəsmi cavab üçün qanunla müəyyən olunmuş müddəti pozmaqla, Nazirlik onların birliyini qeydiyyata almaqdan yayındığı üçün təşkilat hüquqi şəxs statusunu əldə edə bilməyib. Bundan başqa, onlar şikayət etdilər ki, təsisçilər tərəfindən birliyin adına onun fəaliyyətinə aid izahın daxil edilməməsi, eləcə də nizamnaməsinin imzalanmaması birliyi qeydiyyata almaqdan imtina üçün əsas ola bilməz. Konvensiyanın 11-ci maddəsi aşağıdakıları nəzərdə tutur:

«1. Hər kəsin dinc toplaşmaq azadlığı və öz maraqlarını müdafiə etmək üçün həmkarlar ittifaqları yaratmaq və onlara qoşulmaq hüququ da daxil olmaqla, başqaları ilə birləşmək azadlığı hüququ vardır.

2. Bu hüquqların həyata keçirilməsinə milli təhlükəsizlik və ictimai asayiş maraqları naminə, iğtişaşın və cinayətin qarşısını almaq, sağlamlığın və mənəviyyatın qorunması və ya digər şəxslərin hüquq və azadlıqlarının müdafiəsi üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olanlardan başqa heç bir məhdudiyyət qoyula bilməz. Bu maddə silahlı qüvvələr, polis və ya inzibati dövlət orqanları üzvlərinin belə hüquqlarının həyata keçirilməsinə qanuni məhdudiyyətlər qoyulmasına mane olmur.»

**A. Məqbulliyyət**

21. Hökumət bildirib ki, ərizəçilər Konvensiyanın 11-ci maddəsi üzrə birləşmək azadlığı hüquqlarının pozulmasından xüsusilə şikayət etməyiblər. Bundan başqa, onlar bütün daxili vasitələri tükəndirməyiblər, ona görə ki, Ali Məhkəmənin 29 iyun 2005-ci il tarixli yekun qərarından Konstitusiya Məhkəməsinə şikayət verməyiblər.

22. Ərizəçilər bildirdilər ki, onlar bütün adi daxili vasitələri tükəndiriblər.

23. Məhkəmə hesab edir ki, birliyin dövlət qeydiyyatında qanunsuz gecikdirmədən şikayəti nəzərdə tutan Ədliyyə Nazirliyinə qarşı ərizəçilərin məhkəmə iddiası mahiyyət etibarilə birləşmək azadlığı hüquqlarının iddia olunan pozuntusundan şikayəti təşkil edir. Bundan başqa, onlar şikayətlərində xüsusilə Konvensiyanın 11-ci maddəsinə istinad ediblər.

24. Daha sonra, Məhkəmə birliyin dövlət qeydiyyatında gecikmələrə aid oxşar işlərdə gəldiyi nəticəyə istinad edir ki, Konstitusiya Məhkəməsinə şikayət, Məhkəməyə şikayət vermək üçün qabaqcadan tükəndirilməli olan vasitələrdən biri deyildir. Xüsusən, Konstitusiya Məhkəməsi adekvat əlçatanlığa malik deyildir, ona görə ki, Konstitusiya Məhkəməsinə fərdi şikayət hüququnun həyata keçirilməsi məqsədilə şəxslərdən daxili səviyyədə tələb olunur ki, Konvensiyanın 35-ci maddəsinin 1-ci bəndinin mənasında qeyri-səmərəli olan başqa vasitədən (Ali Məhkəmənin Plenumu qarşısında əlavə kassasiya icraatı) istifadə etsinlər (bax, *İsmayılov Azərbaycana qarşı*, № 4439/04, § § 39-40, 17 yanvar 2008-ci il). Məhkəmə hazırkı işdə qeyd olunan hüquqi mövqeyini dəyişmək üçün hər hansı səbəb görmür.

25. Bu səbəblərə görə, Məhkəmə Hökumətin etirazını rədd edir.

26. Məhkəmə həm də qeyd edir ki, şikayət Konvensiyanın 35-ci maddəsinin 1-ci bəndinin mənasında açıq-aşkar əsassız və hər hansı başqa əsaslarla qeyri-məqbul deyildir. Buna görə, şikayət məqbul elan edilməlidir.

**B. Mahiyyət**

1. *Tərəflərin dəlilləri*

27. Hökumət ərizəçilərin birləşmək azadlığı hüququna müdaxilənin baş vermədiyini iddia edərək bildirdi ki, Nazirlik birliyi qeydiyyata almaqdan rəsmi imtina etməyib. Əksinə, o, sadəcə olaraq təsisçilərə təsis sənədlərini qaytardı ki, onlar çatışmazlıqları daxili qanunvericiliyin tələblərinə uyğun düzəldə bilsinlər. Hökumət bildirdi ki, «ictimai birliyi qeydə almaqdan imtinanın birləşmək azadlığı hüququnun pozulması kimi qiymətləndirilməli olmasına baxmayaraq, (dövlət qeydiyyatına alınmaq üçün müraciətə) gecikmiş cavab bu hüququn pozulmasını ifadə etmir». Nazirlik prosedur səhvlərinə yol versə belə, bu, Konvensiyanın 11-ci maddəsinə əsasən ərizəçilərin hüquqlarının pozulmasını təşkil etməyib.

28. Bundan başqa, Hökumət bildirib ki, hüquqi şəxs statusunun olmaması birliyi öz fəaliyyətini davam etdirməkdən məhrum etməyib.

29. Nəhayət, Hökumət bildirdi ki, qeydiyyat prosesində təsisçilər «lazımi səy göstərməyiblər», ona görə ki, birliyin nizamnamə sənədləri qanunvericiliyin tələblərinə uyğun tərtib edilməyib. Ərizəçilər bu çatışmazlıqları düzəldə və qeydiyyat müraciətlərini yenidən təqdim edə bilərdilər.

30. Ərizəçilər iddia etdilər ki, təsisçilərin qeydiyyat müraciətinin cavablandırılmasında daxili qanunvericiliklə təsbit olunmuş müddətdən kənara çıxan əhəmiyyətli gecikmə onların birləşmək azadlığı hüququna müdaxiləni və bu hüququn pozulmasını ifadə edib. Ərizəçilər bildirdilər ki, belə gecikmə daxili qanunvericiliyə zidd olub.

31. Ərizəçilər daha sonra bildiriblər ki, Nazirlik tərəfindən birliyi qeydiyyata almaqdan imtina üçün qeyd olunmuş səbəblər qanunsuzdur. Onlar, həmçinin qeyd etdilər ki, dövlət qeydiyyatı ilə hüquqi şəxs statusunu əldə etmədən, birlik lazımınca fəaliyyət göstərə və əsas fəaliyyəti ilə məşğul ola bilmirdi, ona görə

ki, o, maliyyələşməni əldə edə, vergi güzəştlərindən istifadə edə və bir neçə maliyyə və başqa işlərə cəlb oluna bilmirdi.

*2. Məhkəmənin qiymətləndirməsi*

32. Məhkəmə qeyd edir ki, hazırkı iş *Ramazanova və digərləri Azərbaycana qarşı* (№ 44363/02, 01 fevral 2007-ci il)*, Nəsibova Azərbaycana qarşı* ( № 4307/04, 18 oktyabr 2007-ci il) və yuxarıda qeyd olunan *İsmayılov Azərbaycana qarşı* işlərlə əsasən oxşardır.

33. Xüsusən, həmin işlərdə Məhkəmə müəyyən edib ki, Ədliyyə Nazirliyi tərəfindən qanunla müəyyən olunmuş müddət ərzində Azərbaycanda təsis edilmiş birliyin dövlət qeydiyyatı müraciətlərinə cavab verilməməsi birliyin qeydiyyata alınmasından *de facto* imtinaya gətirib çıxarıb. Dövlət qeydiyyatı olmadan birlik hüquqi şəxs statusuna malik olmayıb və beləliklə, onun hüquqi vəziyyəti, müəyyən məhdud fəaliyyətdə iştirak edə bilməsi güman edilsə belə, dövlət qeydiyyatına alınmış qeyri-hökumət təşkilatlarından fərqlənib. Qeydiyyat prosedurunda əhəmiyyətli gecikmələr Ədliyyə Nazirliyinə aid edilə bilsə, birlik təsisçilərinin birləşmək azadlığı hüquqlarının həyata keçirilməsinə müdaxiləni təşkil edib (bax, sonrakı mənbələrə, məsələn, yuxarıda qeyd olunan *Ramazanova və digərləri*, § § 54-60). Müvafiq olaraq, ərizəçilərin birliyin təsisçiləri olduğu hazırkı işdə onların birləşmək azadlığı hüquqlarının həyata keçirilməsinə müdaxilə baş verib.

34. Belə müdaxilə Konvensiyanın 11-ci maddəsinin şərtlərinə əsasən, əgər, o, «qanunla nəzərdə tutulmayıbsa», əsaslı ola bilməz, həmin maddənin 2-ci bəndində təsbit olunmuş bir və ya bir neçə qanuni məqsədlərə yönəlməyib və bu məqsəd, yaxud məqsədlərə nail olmaq üçün «demokratik cəmiyyətdə zəruri olmayıb» (bax, məsələn, *Çasanu və digərləri Fransaya qarşı* (BP), № 25088/94, 28331/95 və 28443/95, § 104, İHAM 1999-III).

35. Məhkəmə təkrar edir ki, «qanunla nəzərdə tutulmuş» ifadəsi tələb edir ki, mübahisəli tədbir daxili qanunvericilikdə müəyyən əsaslara malik olsun və sözügedən qanunun keyfiyyətinə istinad etsin. Qanun müvafiq şəxslərə aid əlçatan olmalıdır və zərurət olduqda, lazımi məsləhətlə onlara kifayətedici dəqiqliklə imkan verməlidir ki, mövcud hallarda əsaslı olan dərəcədə müvafiq hərəkətin səbəb ola biləcəyi nəticələri qabaqcadan görsünlər (bax, məsələn, *Maestri İtaliyaya qarşı* (BP), № 39748/98, § 30, İHAM 2004-I; *Adalı Türkiyəyə qarşı*, № 38187/97, § 272, 31 mart 2005-ci il; və *Rekveni Macarıstana qarşı* (BP), № 25390/94, § 34, İHAM 1999-III). Daxili qanunvericilik bu tələblərə cavab vermək üçün o, Konvensiya ilə təmin olunmuş hüquqlara dövlət hakimiyyəti orqanları tərəfindən qanunsuz müdaxilələrə qarşı hüquqi müdafiə tədbirlərini təqdim etməlidir. Fundamental hüquqlara aid olan məsələlərdə Konvensiya ilə qorunan əsas demokratik cəmiyyət prinsiplərindən biri olan qanunun aliliyinə zidd olar ki, icra hakimiyyətinə qeyri-məhdud hakimiyyətdə ifadə olunan şərtlər hüquqi mülahizə kimi təqdim edilsin. Nəticə etibarilə, qanun kifayətedici aydınlıqla hər hansı belə mülahizənin əhatəsini və onun həyata keçirilməsi tərzini göstərməlidir (bax, *Həsən və Çauş Bolqarıstana qarşı* (BP), № 30985/96, § 84, İHAM 2000-XI və yuxarıda qeyd olunmuş *Maestri*, § 30).

36. Hazırkı işlə *Ramazanova və digərlərinin, Nəsibovanın* və *İsmayılovun* işləri arasında bir qeyd edilməli fərq ondan ibarətdir ki, bu işdə dövlət qeydiyyatı üçün müraciətlərini etdikdən bir neçə ay sonra «Dövlət qeydiyyatı haqqında» yeni Qanun 09 yanvar 2004-cü ildə qüvvəyə minib və hüquqi şəxslərin dövlət qeydiyyatı barədə əvvəlki qaydaları əvəzləyib. Buna görə, müdaxilənin «qanunla nəzərdə tutulmuş» olub-olmamasının müəyyən edilməsi üçün hazırkı işdə qeydiyyat prosesini hansı daxili qanunun tənzimlədiyi müəyyən edilməlidir.

37. Məhkəmə ilk növbədə qeyd edir ki, ərizəçilər qeydiyyat müraciətini «Dövlət qeydiyyatı haqqında» əvvəlki Qanunun qüvvədə olduğu vaxt, 23 iyun 2003-cü ildə təqdim ediblər. Bu Qanunun 9-cu maddəsi hüquqi şəxsin dövlət qeydiyyatı və ya bundan imtina barədə qərarın qəbulu üçün Nazirliyə on gün müddət müəyyən edib. Hüquqi şəxsin təsis sənədləri düzəldilməsi mümkün olan çatışmazlıqlara malik olduqda, Nazirlik həmin on gün müddətində bu çatışmazlıqları düzəltmək barədə izahlarla sənədləri təsisçilərə qaytara bilərdi. Belə düzəlişdən sonra qeydiyyat sənədləri yenidən təqdim edildikdə, qanun rəsmi cavab üçün beş günlük müddət təyin edib. Buna görə, belə nəticəyə gəlinir ki, «Dövlət qeydiyyatı haqqında» əvvəlki Qanuna müvafiq olaraq, Nazirlik ərizəçilərin 23 iyun 2003-cü il tarixli müraciətinə ən azı ilkin qərar çıxarmalı olmuşdur. Bu tarix isə «Dövlət qeydiyyatı haqqında» yeni Qanunun qüvvəyə minməsindən xeyli əvvəlki dövrə təsadüf edir. Lakin hazırkı işdə Nazirlik öz cavabını təxminən səkkiz ay gecikdirib.

38. Daxili məhkəmələr hesab ediblər ki, ərizəçilərin Ədliyyə Nazirliyinə qarşı məhkəmə iddiası araşdırılan zaman «Dövlət qeydiyyatı haqqında» əvvəlki Qanun artıq qüvvədən düşmüşdür. «Dövlət

qeydiyyatı haqqında» yeni Qanunun yalnız prosessual tələbləri tətbiq olunub. Onlar, həmçinin qənaətə gəliblər ki, 40 günlük yeni müddət 09 yanvar 2004-cü ildən, yəni «Dövlət qeydiyyatı haqqında» yeni Qanunun qüvvəyə mindiyi tarixdən axmağa başlayıb. Ədliyyə Nazirliyi ərizəçilərə rəsmi cavabını 18 fevral 2004-cü ildə göndərdiyi üçün məhkəmələr hesab ediblər ki, bu cavab «Dövlət qeydiyyatı haqqında» yeni Qanuna əsasən hazırda tətbiq olunan müddət daxilində göndərilib.

39. Lakin belə nəticə mahiyyət etibarilə güman olunan belə bir qənaəti təşkil edib ki, əvvəlki qanunu əvəzləyən yeni qanunun qüvvəyə minməsinə dair adi fakt əvvəlki qanunun hələ qüvvədə olduğu zaman baş vermiş onun prosessual tələblərinin pozuntularına görə məsuliyyəti hansısa yolla Ədliyyə Nazirliyinin üstündən götürür. Məhkəmənin qənaətinə görə, belə mövqe qanunsuzdur və ədalət mühakiməsi və hüquqi müəyyənlik maraqlarına ziddir. Daxili məhkəmələr 23 iyun 2003-cü ildən, yəni qeydiyyat müraciətinin ərizəçilər tərəfindən təqdim edildiyi vaxtdan 09 yanvar 2004-cü ilədək, yəni «Dövlət qeydiyyatı haqqında» yeni Qanunun qüvvəyə mindiyi zamanadək Nazirliyin davamlı hərəkətsizliyinə hər hansı hüquqi qiymət verməyiblər.

40. Daxili məhkəmələr müəyyən etməyiblər və bu, Hökumət tərəfindən mübahisələndirilməyib ki, «Dövlət qeydiyyatı haqqında» yeni Qanunun müddəaları geriyə şamil olunma üzrə hər hansı qüvvəyə malikdir. Hüquqi aktların geriyə şamil olunmasına dair daxili qanunvericiliyin müvafiq müddəalarını (bax, 18-19-cu paraqraflar) nəzərə alaraq, Məhkəmə də belə nəticəyə gəlir ki, «Dövlət qeydiyyatı haqqında» yeni Qanun geriyə şamil edilməyib. Buna görə, ərizəçilərin öz qeydiyyat müraciətlərini 23 iyun 2003-cü ildə təqdim etdiyini nəzərə alaraq, tətbiq olunan dövlət qeydiyyatı proseduru həmin vaxtda qüvvədə olmuş «Dövlət qeydiyyatı haqqında» əvvəlki Qanunun nəzərdə tutduğu kimi olub.

41. 37-ci paraqrafda qeyd olunduğu kimi, Məhkəmə bu qənaətə gəlir ki, ərizəçilərin qeydiyyat müraciətinə cavab olaraq təxminən səkkiz ay ərzində hər hansı hərəkət etməməsi ilə, Nazirlik «Dövlət qeydiyyatı haqqında» əvvəlki Qanunla təsbit edilmiş on günlük prosessual müddəti pozub. Qeydiyyat prosesində belə əsassız gecikməyə haqq qazandıran hər hansı əsas daxili qanunvericilikdə olmayıb. Bundan başqa, hazırkı işin hallarında Nazirliyin iddia olunan işlə yüklənməsi belə davamlı gecikməyə üzrlü səbəb kimi qiymətləndirilə bilməz, ona görə ki, müvafiq dövrdə Dövlətin öz qanunu ilə müəyyən olunmuş müddətlərə Ədliyyə Nazirliyinin təcrübəsinin uyğunlaşdırılması üçün Dövlətin gördüyü istənilən tənzimləyici tədbirlərə aid hər hansı sübut yoxdur (bax, yuxarıda qeyd olunmuş *Ramazanova*, § § 64-65).

42. Daha sonra, «Dövlət qeydiyyatı haqqında» əvvəlki Qanunun keyfiyyətinə gəldikdə, Məhkəmə öz qənaətini təkrarlayır ki, o, qanunla müəyyən olunmuş müddətdə Nazirlik tərəfindən hər hansı hərəkət etməməsinin nəticələrini kifayətedici dəqiqliklə müəyyən etməyib. Xüsusən, qanun, Nazirlik vaxtında hər hansı hərəkət etmədiyi halda, hüquqi şəxsin avtomatik qeydiyyatını və ya hər hansı digər nəticələri nəzərdə tutmayıb. Bu isə prosessual müddət məhdudiyyətlərinin mahiyyətinə səmərəli zərbə vurub. Belə təminatlar olmadan, Nazirlik özbaşına olaraq bütün qeydiyyat prosesini qeyri-müəyyən müddətə uzada bilərdi. Müvafiq olaraq, qanun Ədliyyə Nazirliyinin qanunsuz hərəkətlərinə qarşı ərizəçilərə kifayətedici hüquqi müdafiəni təqdim etməyib (həmin yerdə, § 66).

43. Ərizəçilərin dövlət qeydiyyatı müraciətinə rəsmi cavabın verilməsi üçün Ədliyyə Nazirliyi tərəfindən qanunla müəyyən olunmuş müddətin pozulduğunu və həmin vaxtda tətbiq olunan daxili qanunvericiliyin bu növ gecikməyə qarşı kifayətedici müdafiəni təqdim etmədiyini müəyyən edərək, Məhkəmə hesab edir ki, müdaxilə Konvensiyanın 11-ci maddəsinin 2-ci bəndinin mənasında «qanunla nəzərdə tutulmayıb».

44. Bu qənaətə gələrək, Məhkəmə Konvensiyanın 11-ci maddəsinin 2-ci bəndinin başqa tələblərinə (qanuni məqsəd və müdaxilənin zəruriliyi) riayət olunmasının araşdırılmasına zərurət görmür.

45. Müvafiq olaraq, iş üzrə Konvensiyanın 11-ci maddəsinin pozuntusu baş verib.

## II. KONVENSİYANIN BAŞQA İDDİA OLUNAN POZUNTULARI

46. Konvensiyanın 6 və 13-cü maddələrinə əsasən ərizəçilər şikayət etdilər ki, daxili məhkəmə araşdırmaları «ağlabatan müddət» tələbinə cavab verməyib və daxili məhkəmələr Ədliyyə Nazirliyinin tərəf kimi cəlb olunduğu işlərdə müstəqil və qərəzsiz olmayıblar.

47. Malik olduğu bütün material baxımından və şikayət olunan məsələlərin onun səlahiyyəti daxilində olduğu qədər, Məhkəmə hesab edir ki, onlar Konvensiya və ya onun Protokolları ilə təsbit olunmuş hər hansı hüquq və azadlıqların pozuntusunun görüntüsünü aşkar etmir.

48. Belə nəticəyə gəlinir ki, bu şikayətlər açıq-aşkar əsassızdır və Konvensiyanın 35-ci maddəsinin 3 və 4-cü bəndlərinə müvafiq olaraq rədd edilməlidir.

## III. KONVENSİYANIN 41-ci MADDƏSİNİN TƏTBİQİ

49. Konvensiyanın 41-ci maddəsi aşağıdakıları nəzərdə tutur:

> «Əgər Məhkəmə Konvensiyanın və ona dair Protokolların müddəalarının pozulduğunu, lakin Razılığa gələn Yüksək Tərəfin daxili hüququnun yalnız bu pozuntunun nəticələrinin qismən aradan qaldırılmasına imkan verdiyini müəyyən edirsə, zəruri halda zərərçəkən tərəfə əvəzin ədalətli ödənilməsini təyin edir.»

50. Ərizəçilər ədalətli kompensasiya tələbini verməyiblər. Müvafiq olaraq, Məhkəmə hesab edir ki, bu məsələ üzrə onlara hər hansı kompensasiyanın təyin edilməsinə əsas yoxdur.

## BU SƏBƏBLƏRƏ GÖRƏ MƏHKƏMƏ YEKDİLLİKLƏ

1. Ərizəçilərin birləşmək azadlığı hüququna dair şikayətini məqbul, şikayətin qalan hissəsini isə qeyri-məqbul *elan edir*;

2. İş üzrə Konvensiyanın 11-cı maddəsinin pozulmasını *qərara alır*;

İngilis dilində tərtib olunub və Məhkəmə Reqlamentinin 77-ci qaydasının 2 və 3-cü bəndlərinə müvafiq olaraq, qərar barədə məlumat yazılı şəkildə 18 dekabr 2008-ci ildə göndərilib.

Soren Nilsen
Katib

Xristos Rozakis
Sədr